**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KÖNÜL İBRAHİM qızı KAZIMOVA**

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ JANR VƏ ÜSLUB MƏSƏLƏLƏRİ (1991-2005-Cİ İLLƏR)

**5716.01 - Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirlimişdir.

**Elmi rəhbər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Vaqif Sultanlı** (Vaqif Soltan oğlu Verdiyev)

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Cahangir Əbdüləli oğlu Məmmədli**

*filologiya üzrə elmlər doktoru, professor*
**Nizami Tağı oğlu Məmmədov**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «____» ___________ 2017-ci il saat «___»-da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyaların müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2017-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanda baş verən azadlıq uğrunda mücadilə, dövlət müstəqilliyinin elan edilməsi, müharibə faktı bütün sahələr kimi ədəbiyyata və ədəbi prosesə də öz təsirini göstərmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində yaranan senzurasızlıq mühiti, milli-ideoloji oyanış, fərqli düşüncələrin toqquşması ədəbiyyatda da yeni yaradıcılıq meyillərinin oyanmasına şərait yaratmışdır.

Obyektiv və subyektiv məqsəd və səbəblərin təsirindən asılı olan milli ədəbiyyat bəzən şişirdilmiş "mənfi" və "müsbət"lərin, bəzən də rasional və absurd təsvirlərin, daha dəqiq desək, paradoksların toqquşmasının məntiqi və bədii yekunu olaraq sanki çaşqınlıq içərisində idi. Lakin müvəqqəti xarakter daşıyan bu inamsızlıq ədəbiyyatın dərininə sirayət edə bilməmişdir. Çünki zaman həmişə olduğu kimi öz hökmünü vermiş, qısası, milli söz sənəti çaşqınlıqdan, xaosdan qurtularaq, konkretlik qazanmışdır. Beləliklə də, diqqəti cəlb edən, ədəbi mühitin marağına səbəb olacaq bədii nümunələr yaranaraq ədəbiyyat tarixinin rəflərində əsil yerlərini tutmuşdur. Bu prosesin də məntiqi yekunu olaraq ədəbiyyatda "ideal robotlar"ı "düşünən qəhrəmanlar"ın təbii, real cizgiləri əvəz etməyə başlamışdır.

Qeyd etdiyimiz kimi, yeni inkişaf mərhələsinə qədəm qoyan çağdaş ədəbiyyat əhatə dairəsinin genişlənməsi ilə cəmiyyətin beyninə, qəlbinə daha dərindən nüfuz etməyə başlamışdır. Bir müddət durğunluq dövrünü yaşasa da, ədəbiyyat kiçilməmiş, bəsitləşməmiş, bayağılaşmamış, beləliklə də, layiq olduğu səviyyəyə yüksəlmiş, xalqın etimadını doğruldaraq yenidən onun milli-mənəvi sərvətinə çevrilmişdir. Lakin bu qayıdış heç də keçmişləri təkrarlamaq üçün deyil, tam əksinə, sahib olduğumuz möhkəm özüllü binanı daha da ucaltmaq məramından qaynaqlanır.

Həqiqətən də, 1991-2005-ci illər bütün uğurları və nöqsanları ilə xalqımızın sahib olduğu milli sərvətdir və bu sərvətin ciddi araşdırılmasına ehtiyac duyulur. Amma, təəssüf ki, bu dövrün nəsri çox zaman birtərəfli şəkildə dəyərləndirilmişdir.

Bəhs etdiyimiz dönəmin nəsrinin araşdırılması vacib olan problemlərindən janr və üslub məsələləri xüsusilə özünü qabarıq şəkildə göstərir. Çünki müasir dövrün tələbi və ənənənin təsiri arasında tərəddüdlər keçirən dövrün ədəbiyyatı hər iki məsələdə ciddi obyektiv və subyektiv maneələrlə qarşılaşmışdır. Bu əngəllərin səbəbini, mahiyyətini tədqiq etmək isə ədəbiyyatşünaslığın həlli vacib məsələlərindəndir. Əsərin tam bir bütöv

olması üçün janr və üslub bir-birini tamamlamalı, bir vəhdət yaratmalıdır. Ancaq dövrün ictimai-siyasi qarışıqlığı yazıçıları daha çox janr, üslub, mövzu seçimində qeyri-müəyyənliyə sürükləmişdir. Yaranmış xaos təbii ki, nəsr əsərlərinin kəmiyyət və keyfiyyətindən də yan ötməmişdir.

Lakin bütün bu problemlərə baxmayaraq, adı keçən dövr ənənəyə söykənən, müasir janr və üslubu ilə sözün yaxşı mənasında diqqəti cəlb edə biləcək çoxlu bədii əsərlərə sahibdir. Sadalanan kəm-kəsirlərilə yanaşı, çətinlikləri, eyni zamanda müsbət keyfiyyətləri ilə nəsrimizi tədqiq etmək ən ümdə ədəbiyyatşünaslıq məsələlərindəndir. Tədqiqatın ən maraqlı, aktual tərəfi isə çoxəsrlik tarixi keçmişə malik ədəbiyyatın davamı olan 1991-2005-ci illər nəsrinə yarandığı dövrün prizmasından yanaşmaqdır. Əslində araşdırmanın aktuallığını şərtləndirən səbəblərdən biri məhz bəhs olunan illərin nəsrini aid olduğu dövrün kontekstində dəyərləndirmək, tədqiq etməkdir.

Dissertasiya işi müstəqillik illərində yaranan çağdaş Azərbaycan nəsrinin inkişaf meyillərini, nəsrin müxtəlif janrlarında baş verən dəyişiklikləri, meydana çıxan üslub müxtəlifliyini, bütün bu proseslərin göstərdiyi təsirləri müəyyən etmək və qənaətləri ümumiləşdirmək baxımından aktuallıq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Çağdaş Azərbaycan nəsrinin inkişaf meyilləri, janr və üslub xüsusiyyətləri hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuş, nəsrin müxtəlif janrları haqqında monoqrafiya və dissertasiyalar yazılmışdır. Bu sahədə Vaqif Yusiflinin "Roman haqqında mülahizələr", "Nəsr: konfliktlər, xarakterlər", Kamran Əliyevin "Üslubiyyat və üslublar sistemi", Yavuz Axundlunun "Tarixi roman yeni mərhələdə" Cahangir Məmmədlinin "Çağdaş Azərbaycan nəsrinin inkişaf meyilləri", Tehran Əlişanoğlunun "Azərbaycan yeni nəsri", "XX əsr Azərbaycan nəsrinin poetikası", Himalay Ənvəroğlunun "Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri", Təyyar Salamoğlunun "Müasir Azərbaycan romanının poetikası (XX əsrin 80-ci illəri)", N.L. Bayramovanın Müasir nəsrin janr və poetika axtarışları (Elçinin bədii nəsri əsasında)"[1] və b.

---

[1]V.Yusifli "Roman haqqında mülahizələr", "Azərbaycan", 1982, № 5, s. 152-170; Yenə onun: "Nəsr: konfliktlər, xarakterlər" Bakı, "Yazıçı", 1986, 168 s., K.Əliyev. Üslubiyyat və üslublar sistemi, Bakı, "ADU", 1985; Y.Axundlu. Tarixi roman yeni mərhələdə, Bakı, "Maarif", 1998; C.Məmmədli Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri, Bakı, "BDU", 1998; T.Əlişanoğlu "Azərbaycan yeni nəsri", Bakı, "Elm", 1999; H.Ənvəroğlu Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri, Bakı, "Elm", 2004; T.Salamoğlu. Müasir Azərbaycan romanının poetikası (XX əsrin 80-ci illəri) Bakı, "Elm", 2005; Yenə onun: XX əsr Azərbaycan nəsrinin poetikası, Bakı, "Elm", 2006; N.L. Bayramova. Müasir nəsrin janr və poetika axtarışları (Elçinin bədii nəsri əsasında)", Fil.e.n.alim.dər.al.üçün təq. ol.dis., 2006.

araşdırmalar vardır. Lakin bu tədqiqatlarda janr məsələsinə daha çox önəm verilmiş, üslub isə bir qədər arxa planda qalmışdır. Müdafiəyə təqdim olunan "Müasir Azərbaycan nəsrində janr və üslub məsələləri (1991-2005-ci illər)" adlı dissertasiya işində hər iki məsələ konkret zaman kəsiyində yaranmış əsərlərin fonunda tədqiq olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti 1991-2005-ci illər ərzində müxtəlif janrlarda yazılmış nəsr nümunələri - roman, povest və hekayələrdir. Ə.Cəfərzadənin "Zərrintac – Tahirə", M.Süleymanlının "Günah duası", S.Alışarlının "Maestro", S.Əhmədlinin "Axirət sevdası", İ.Muğannanın "Qəbristan", M.Orucun "Köçürülmə", Anarın "Ağ qoç, qara qoç", E.Hüseynbəylinin "Don Juan", İ.Fəhminin "Aktrisa", A.Məsudun "Azadlıq", M.İbrahimbəyovun "Dənizdə qasırğa", K.Abdullanın "Yarımçıq əlyazma", Əlabbasın "Qiyamçı" romanları, N.Əbdülrəhmanlının "Dönəlgə", M.Cəfərlinin "Hörümçək", A.Quliyevin "Əyalət yazıçısı", M.Orucun "Son dayanacaqlardan biri", Y.Səmədoğlunun "Köhnə yəhudi mahnısı" povestləri, bununla yanaşı Yanvar hadisələrindən, Qarabağ faciəsindən bəhs edən xeyli sayda povest və hekayələr, o cümlədən Elçinin "Bayraqdar", F.Qocanın "Qarlı, qanlı qərənfillər", S.Azərinin "Mən DTK-nın təcridxanasında yatmışam" povestləri, Elçinin "Qarabağ şikəstəsi" A.Qaradərəlinin "Ulartı", Ş.Əbilin "Ala çatı" hekayələri dissertasiyanın ayrı-ayrı fəsillərində müxtəlif aspektlərdən təhlil edilmişdir. Dissertasiyanın obyekti kimi predmeti də çoxşaxəli, geniş və əhatəlidir. Tədqiqata cəlb olunmuş əsərlərin janr və üslub xüsusiyyətlərinin, üslublar arasındakı əlaqələrin, nəsr nümunələrinin məzmun və strukturunda milli koloritin, ənənənin və müasirliyin izlərinin araşdırılması, bu zaman qarşıya çıxan bir çox nəzəri problemlərin təhlili dissertasiyanın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ictimai-siyasi və bir çox sahədə gərgin, qarışıq bir dövrün nəsrinin geniş, ətraflı araşdırılmasıdır. Bu dövr nəsri sözün əsil mənasında uzun illərin asılılığından zor gücünə azadlığını əldə etmiş müstəqil dövlətin, daha doğrusu, ağır psixoloji, mənəvi və fiziki sınaqlardan sonra çətinliklə də olsa dirçəlməyə başlayan xalqın nəsridir. Başlanğıcını gərgin bir mübarizədən, daha doğrusu, müharibədən götürən ədəbiyyat bir müddət durğunlaşmış, lakin bu proses uzun çəkməmişdir. Çünki ənənə öz hökmünü vermişdir. Dərin mədəni, ədəbi, tarixi kökləri olan bir millətin ədəbiyyatı yenidən gücünü göstərməyə başlamışdır. Tədqiqatımızın qarşıya qoyduğu məqsəd də müharibənin dəhşətindən sıyrılıb çıxmış bir nəsrin janr və üslub məsələlərinə həm nəzəri, həm də ideya-bədii aspektdən yanaşmaqdır. Bu yanaşmanın əsas

qayəsi ənənəvi köklərə dayanmaqla mövcud nəzəri qaynaqlar kontekstində müasir Azərbaycan nəsrini dünya ədəbiyyatının bir parçası kimi tədqiq etməkdir. Lakin bu heç də tədqiqatın məqsədinin Azərbaycan nəsrinin dünya ədəbiyyatı örnəkləri ilə müqayisəli araşdırılması demək deyildir, əksinə, milliyin kökündə gizlənən bəşəri ideya və qayələrin aşkarlanmasıdır.

Əsas məqsəd mövcud zaman kəsiyində yazılmış əsərlərin janr baxımından dəyərləndirilməsini, yeni üslubların və ədəbi cərəyanların yarandığı bir zamanda "janr" anlayışına müasir yanaşmanı tədqiqata cəlb etməkdir.

Dissertasiyada qarşıya qoyulan məqsədə çatmaq üçün əsas etibarilə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə çalışılmışdır:

- Müasir nəsrin əsas janrlarını nəzəri müstəvidə araşdırmaq və hər bir janra münasibətdə ənənəvi və müasir baxışı tədqiq etmək;
- Çağdaş nəsrdə müşahidə olunan janr çalarlarını konkret yazıçıların əsərləri fonunda dəyərləndirmək;
- Janr və üslub məsələləri ilə bağlı müasir ədəbiyyatşünaslıqda mövcud olan mübahisələrə aydınlıq gətirmək;
- Bu dövr nəsrinin əldə etdiyi uğurlarla yanaşı qüsur və nöqsanlarını dövrün ictimai-siyasi tələb və təsirləri baxımından araşdırmaq;
- Bədii üslub məsələsini çağdaş elmi-nəzəri müstəvidə dəyərləndirmək;
- Müasir üslubları müəyyənləşdirmək, onları tədqiqata cəlb olunmuş əsərlər əsasında araşdırmaq, həmçinin ənənəvi üslublara müasir yanaşmanı tədqiq etmək;
- Üslub və janr məsələsinin qarşılıqlı əlaqəsini müəyyənləşdirmək, roman, povest və hekayələrdə özünü göstərən janr müxtəlifliyini, üslub fərdiyyətini aşkarlamaq;
- Çağdaş Azərbaycan nəsrinin bədii uğurlarını janr və üslub kontekstində dəyərləndirmək.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əsasları.** Tədqiqat işində ədəbiyyatşünaslığın elmi-nəzəri məsələləri konkret bir dönəmin, ədəbiyyat tarixinin fonunda araşdırılmışdır. Buna görə də ədəbiyyatşünaslığın elmi-nəzəri prinsiplərindən, ədəbiyyat tarixinin əsas qaynaqlarından müqayisəli və analitik metodların tələbləri çərçivəsində yaradıcı şəkildə istifadə edilərək müasir nəsrin ədəbi nümunələri həm nəzəri, həm də bədii cəhətdən təhlil və analiz edilmişdir. İşin strukturunda bir çox nəzəri və metodoloji məsələlərdə bu sahədə olan təcrübələrə istinad edilmişdir .

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi hər şeydən əvvəl ilk dəfə araşdırma obyektinə çevrilməsilə bağlıdır. Bu mövzunun özəlliyi, fərqliliyi bilavasitə tədqiq olunduğu dövrlə əlaqədardır. Həm tarixin, həm də bədii düşüncənin keçid mərhələsinə təsadüf edən 1991-2005-ci illərdə dünyada gedən hadisə və proseslərin Azərbaycan ədəbiyyatına, xüsusən də, nəsrinə təsirinin, ideya-məzmun yeniliklərinin, poetik axtarışların səciyyəvi xüsusiyyətlərinin araşdırılmasına ehtiyac vardır. Yeni yaradıcılıq axtarışlarının öyrənilməsi zəruridir. Bu dövrün nəsri yalnız ayrı-ayrı müəlliflərin əsərlərindən bəhs edən tədqiqatların obyekti olmuş, bu əsərlərin janr və üslub məsələləri ümumiləşmiş şəkildə deyil, daha çox fərdi yaradıcılıq kontekstində dəyərləndirilmişdir. Bu baxımdan dissertasiya işi 1991-2005-ci illər nəsrini tam və hərtərəfli, sistemli şəkildə araşdıran tədqiqat əsəri kimi xüsusi əhəmiyyət daşıyır və yenidir.

Dissertasiya işində janr və üslub probleminin araşdırılması kontekstində yalnız bəhs olunan illərin bədii örnəkləri deyil, əvvəlki dövrün ədəbi məhsulları da müqayisəli şəkildə təhlilə cəlb olunmuşdur. Təhlillərin müqayisəli şəkildə aparılması 1991-2005-ci illərdə yaranan örnəklərin təhlili fonunda bütövlükdə milli bədii nəsrdə janr-üslub probleminin təkamül prosesini səciyyələndirməyə imkan vermişdir.

Dissertasiyada 1991-2005-ci illərdə yaranmış roman, povest və hekayələr təhlil olunarkən bir tərəfdən ümumi ədəbi proses fonunda qazanılan ədəbi uğurlar səciyyələndirilmiş, digər tərəfdən ayrı-ayrı sənətkarların bədii yaradıcılıq örnəkləri timsalında onların hər birinə məxsus janr və fərdi üslub çalarları aşkara çıxarılmışdır.

Dissertasiyanın elmi yeniliyini şərtləndirən əsas məqam çağdaş Azərbaycan nəsrinin bədii özəlliklərinin, sənətkarlıq keyfiyyətlərinin janr və üslub kontekstində dəyərləndirilməsidir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Üslub və janr kimi mühüm ədəbiyyatşünaslıq məsələlərinin əhatə olunduğu, elmi-nəzəri problemlərə konkret qaynaqlar fonunda yanaşıldığı üçün dissertasiya işi həm elmi, həm də praktik baxımından qaynaq ola bilər.

Eyni zamanda, bir çox ədəbi məsələlərə fərqli yanaşmanın sərgiləndiyi dissertasiyanının nəticələrindən ali məktəblərdə ümumi və xüsusi kursların tədrisində vəsait kimi istifadə oluna bilər.

Bütövlükdə dissertasiya işi ədəbi tənqid, ədəbiyyatşünaslıq və ədəbiyyat nəzəriyyəsini araşdıran mütəxəssislər üçün qaynaq rolunu oynaya bilər.

**İşin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin Elmi Şurasında təsdiq olunmuşdur. Bakı Dövlət Univer-

sitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın başlıca müddəaları müxtəlif elmi məcmuələrdə nəşr olunmuş elmi məqalələrdə və konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, elmi yeniliyi, tədqiqatın predmeti, məqsəd və vəzifələri, metodu, mövzunun öyrənilməsi, dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Çağdaş bədii nəsrin janr özəllikləri və inkişaf meyilləri"** adlı birinci fəslində müasir Azərbaycan nəsrində janr məsələsi konkret bədii örnəklərin fonunda araşdırılmışdır. Ədəbiyyatda hər şey öz başlanğıcını məhz janrdan götürür. Eyni zamanda, janr həmin təsəvvürün formalaşdığı bədii qəlibdir. Məhz buna görə də, dissertasiyanın I fəsli janra, daha doğrusu, çağdaş Azərbaycan nəsrinin janrlarına həsr edilmişdir. Üç yarımfəsildən ibarət tədqiqatın I yarımfəsli **"Roman janrı: ənənəvilik və yenilik"** adlanır. Zamanın tələblərindən irəli gələrək 1991-2005-ci illərdə modernizmin, hətta bəzən daha da qatılaşan posmodernizmin çalarları ilə mifik və folklor ünsürlərinin təsirinin gücləndiyi məqamları özündə birləşdirən ədəbi nümunələr silsiləsi yaranmışdır. Bu dövr nəsrində insana birtərəfli münasibət demək olar ki, tam şəkildə arxa planda qalmışdır. Hadisələrin metaforik səpkidə təsviri, folklordan qaynaqlanan mifizmə axının çox olması müasir nəsrdə modernizmin əsas göstəricilərindən hesab edilir. Bununla yanaşı, zamanın tələbi ilə əlaqədar olaraq insanın ziddiyyətli, dərin, mürəkkəb psixoloji sarsıntılar yaşayan, dünyanı artıq dərk edən, dərk etdiyi üçün də çaşqınlıq içində qovrulan şüurlu bir varlıq kimi təsviri üstünlük təşkil etməyə başlamışdır. Buna görə də 1991-2005-ci illərdə "İnsan və zaman problemi" bütün yazıçıları artıq düşünməyə vadar edən aktual bir məsələyə çevrilmişdir. Bəziləri bu problemin daha dərin qatlarına enərək fəlsəfi-psixoloji məqamları işıqlandırmağa aludə olmuş, bəziləri isə həmin məsələlərin kölgəsində sadəcə münasibətlər və bu münasibətlərdən doğan problemlərin təsviri ilə kifayətlənmişdir. Təbii ki, bu təsvirlər romanın hüdudları daxilində daha geniş ifadəsini tapmışdır. "İstər tarixi mövzuda yazılsın, istərsə də müasir mövzuda, roman hər şeydən əvvəl, dövrü, epoxanı təsvir etməlidir, cəmiyyət həyatını hətta bir

fərdin taleyində izləməyə məhz roman daha münasib janrdır"[2]. Bu səbəbdən də romana axın bəhs olunan dönəmdə də ciddi şəkildə hiss edilməkdədir. Lakin bu zaman bəzən yazıçılar qələmə aldıqları problemlərə məhəlli yanaşmış, məsələləri geniş prizmadan, dünyəvi, bəşəri baxımdan təsvir edə bilməmişlər. "Bizim müasir romanlarımız ... hələ də gözə çarpan məhəlliçilikdən, provinsializmdən yaxalarını qurtarmalı, az sözlə böyük fikirlər deməyi, müasir insanları, müasir dünyanı düşündürən, həyəcanlandıran problemlər qoyub, sənətkarlıqla, dərin bir bədiiliklə ifadə etməlidirlər"[3].

1991-2005-ci illərdə yaranmaqda olan roman-reportaj (Ə. Əylislinin "Ətirşah Masan"əsəri), roman-ekskurs (E.Hüseynbəylinin "Don Juan" əsəri), tarixi-sərgüzəştli roman (M.İbrahimbəyovun "Dənizdə qasırğa" əsəri) və s. kimi janrdaxili bölgülər məhz çağdaş nəsrdə özünü daha qabarıq göstərmişdir. Müasir dövrün nəsri təkcə janr tipləri ilə deyil, mövzu, üslub baxımından da zəngin irsə sahibdir. Bu dövrdə real tarixi şəxsiyyətləri və hadisələri bədiiləşdirən əsərlərlə yanaşı (Ə.Cəfərzadə "Zərrintac-Tahirə", E.Hüseynbəyli "Don Juan"), yazıçı təxəyyülünün məhsulu olan obrazların vasitəsilə konkret tarixi hadisələri təsvir edən bədii nümunələrə də (A.Məsud "Azadlıq", S.Alışarlı "Maestro", M.İbrahimbəyov "Dənizdə qasırğa", M.Oruc "Köçürülmə") rast gəlinir. Ancaq bu dönəmdə ailə-məişət mövzusunda da yazılmış romanlar qələmə alınmışdır (İ.Fəhmi "Aktrisa", Ə.Əylisli "Ətirşah Masan", Əlabbas "Qiyamçı"). Eyni zamanda, sosial-ictimai, milli-bəşəri problemləri özündə əks etdirən bədii nümunələrlə yanaşı (M.Süleymanlı "Səs", S. Əhmədli "Axirət sevdası"), folklor motivləri əsasında qələmə alınmış romanlar da (Anar "Ağ qoç qara qoç", K.Abdulla "Yarımçıq əlyazma", İ.Fəhmi "Qarğa yuvası") 1991-2005-ci illərə öz möhürünü vurmuşdur.

Araşdırdığımız dövrdə qələmə alınmış romanları birmənlı şəkildə dəyərləndirmək, onlar haqqında qəti hökm vermək asan deyildir. Sadəcə, yazıçı gördüklərindən, eşitdiklərindən, öyrəndiklərindən təsirlənib onları öz fantaziyasıyla yoğurmağı bacarmalıdır. Bu da söz sahiblərindən çox böyük həssaslıq, dərin müşahidə, obrazlı təsvir, fəlsəfi-psixoloji məqamları anlamaq qabiliyyəti və bir çox başqa xüsusiyyətlər tələb edir. Azərbaycan ədəbiyyatının həm folklor abidələrində, həm də yazılı ədəbi nümunələrdə bu cəhətlər həmişə öz qabarıqlığı ilə diqqəti cəlb etmişdir. Tədqiqata cəlb etdiyimiz 1991-2005-ci illər nəsri də bu ənənəni davam etdirmişdir.

Bütün bu çatışmazlıqlara rəğmən, 1991-2005-ci illərdə yazılmış bəzi

---

[2] Vaqif Yusifli. Əsrin birinci ili // Azərbaycan, 2000, № 7, s. 160.
[3] Elçin. Tənqid və nəsr. Bakı: "Günəş" nəşriyyatı, 1999, 233, s 71.

əsərlər, həqiqətən də, ədəbiyyatda müasirliklə, yeniliklə varisliyi özündə yaxşı mənada birləşdirmiş, keçmişin mükəmməl ənənələrini özününküləşdirmiş şəkildə davam etdirmişdir. Həmin əsərləri "ənənəyə dayanmış yenilik" müstəvisində dəyərləndirmək olar.

**"Povest janrı: müasir bədii nəsrdə lirizm epiklik kontekstində"** adlı ikinci yarımfəsildə çağdaş nəsrdə baş verən proseslərə diqqət yönəldilmişdir. Məlumdur ki, 1991-2005-ci illər ərzində hekayə və roman janrına axın güclü olmuşdur. Bu axının bəzi istiqamətləri sadəcə kəmiyyətə, bəziləri isə (təəssüf ki, az qismi) keyfiyyətə xidmət etmişdir. Ancaq hekayə və romana olan meyl heç də nəsrin digər epik janrlarına marağın az olduğuna dəlalət etmir. Belə ki, povest bu dövr nəsrinin öndə gedən janrlarından sayıla bilər. "Bir fikirdən başqa bir fikrə, bir əhval-ruhiyyədən başqasına asanlıqla keçməkdə, hadisənin geniş təfsilatına varmadan onun məğzini açmaqda, ideya-məzmunu yığcam çərçivəyə yerləşdirməkdə, alleqorik, dramatik ünsürləri epik süjetin sürətli inkişafı ilə uyuşdurmaqda, ciddi mühakimələrdən yumora, məlhəmli gülüşdən sarkastik istehzaya... keçməkdə "çevik imkanları" olan povestin" (V.Q.Belinski) bəhs olunan dövrdə bir çox maraqlı nümunələri yaranmışdır. Elçinin Qarabağ müharibəsindən, insanların yaşadığı ağrı-acılardan bəhs edən lirik-romantik üslubda qələmə alınmış "Bayraqdar", M.Orucun avtobioqrafik səciyyəli "Son dayanacaqlardan biri", M.Cəfərlinin publisistik təsvirin üstünlüyü ilə seçilən, irreal düşüncələrin yer aldığı "Hörümçək" əsərlərində ailə-məişət, ictimai-sosial problemlər məhz müharibənin məntiqi nəticəsi kimi təsvir edilmişdir. Y.Səmədoğlunun "Köhnə yəhudi mahnısı", N.Əbdülrəhmanlının "Dönəlgə", A.Quliyevin "Əyalət yazıçısı", əsərlərində isə ötən əsrin 90-cı illərinin qarışıq siyasi mənzərəsi, sosial həyatın mürəkkəbliyi bədii təsvir obyektinə çevrilmişdir.

1991-2005-ci illər Azərbaycan povesti təkcə Qarabağ mövzusu ilə məhdudlaşmır. Povestlərdə müasir mövzularla yanaşı, tarixə maraq da bu dönəmin özəlliklərindəndir. Bu mənada Elçinin "Hökmdarın taleyi", Anarın "Cavid ömrü" povestləri tariximizi qərəzsiz, real faktlarla əks etdirən əsərlərdir.

Göründüyü kimi, mövcud povest örnəkləri dövrün mənzərəsini canlandırmaq baxımından digər janrlardan geri qalmır. Mövzu-problem, üslub və sənətkarlıq baxımından 1991-2005-ci illər povesti çox zəngin və çeşidlidir. Həmçinin keyfiyyətə xidmət edən əsərlərin çoxluğu diqqəti çəkməkdədir. Doğrudur, subyektiv və obyektiv səbəblərdən zəif, qüsurlu əsərlərə rast gəlinməsi bizdə təəssüf hissi yaratsa da, bunlar sayca o qədər də çox deyildir. Çünki yaradıcılıq axtarışları, yüksək sənətkarlığı, dünya-

görüşü ilə ədəbiyyatımıza məzmunlu povestlər bəxş edən yazıçılarımızın varlığı o ümid qığılcımını əsla sönməyə qoymur.

Hekayə janrı və onun xüsusiyyətləri **"Hekayə janrı: bədii inikasın lakonizmi"** adlı üçüncü yarımfəsildə araşdırılmışdır. Bədii nəsrin ən lakonik, dinamik forması olduğu üçün hekayə yazıçıların ən çox müraciət etdiyi janrlardandır. Məhz həm estetik, həm fəlsəfi, həm psixoloji, həm sosioloji və nəhayət, bədii tutumuna görə yazıçıların ehtiyatla yanaşdıqları janr da elə hekayədir.

Əksər tədqiqatçıların qənaətincə, əvvəllər olduğu kimi, müstəqillik illərində də bədii nəsrdə hekayə janrına müraciət bir növ axın şəklini almışdır. Peşəkar qələm sahibləri ilə yanaşı, yaradıcılığa yeni başlayan müəlliflərin də ilk öncə qələmini hekayədə sınaması yanrın mənzərəsini xeyli dərəcədə mürəkkəbləşdirmişdir.

Müasir Azərbaycan hekayəsi nəsrin digər janrları kimi mövzu rəngarəngliyi ilə seçilir. Lakin dönəmin hekayələri Qarabağ faciəsinin və ondan sonra xalqın keçirdiyi ağrılı-acılı günlərin təsvirinə daha çox meyil göstərmişdir. Elçinin "Qarabağ şikəstəsi", Vaqif Sultanlının "Vətən", Azad Qaradərəlinin "Ulartı", Şəlalə Əbilin "Ala çatı", "Teorem", E.Hüseynbəylinin "Keçid dövrünün toyuğu" və s. hekayələri müharibə dəhşətlərindən və fəsadlarından bəhs etmişdir.

1990-cı il 20 Yanvar hadisələri Azərbaycan ədəbiyyatında xüsusi yer tutmuşdur. Sabir Əhmədlinin bu mövzuya həsr etdiyi silsilə hekayələri "Yanvar hekayələri" adlı kitabında toplanmışdır. Həmin əsərlərdən "Qərənfil qan içində, "Sağ-salamat", "Şəhidlər xiyabanı", "Mağmın ruh", "İşığı söndürmə" və s. daha çox diqqəti çəkməkdədir.

Ümumiyyətlə, "Yanvar hekayələri", eləcə də o dövrdə yazılmış bütün əsərlər, sözün əsl mənasında, o müdhiş gecənin salnaməsinə bənzəyir. Bu baxımdan "90-cı illər nəsrinin diqqətəlayiq cəhətləri içərisində onun yarandığı dövrün salnaməçisinə çevrilmək meyli qeyd olunmalıdır".[4] Dövrün bədii güzgüsünə çevrilən həmin hekayələr sistemli şəkildə təhlil edilərək janr baxımından dəyərləndirilmişdir. Doğrudan da, 90-cı illərin ağrılı-acılı günləri ədəbiyyatın bütün janrlarında aparıcı mövzularından birinə çevrilmişdir.

Dissertasiyanın II fəsli **"Bədii-fəlsəfi düşüncə və epik inikas problemi"** adlanır. Bədii üslub həmişə tədqiqatların, araşdırmaların diqqət mərkəzində olmuş, ancaq indiyə qədər dəqiq və konkret ifadəsini demək olar ki, tapmamışdır. Bu kontekstdə ümumi qənaət lirik-semantik, lirik-

---

[4] Vilayət Quliyev. Açıq sözün hikməti, Bakı: "Ozan" nəşriyyatı, 2001, s.46

romantik, epik-analitik, bədii-fəlsəfi, publisistik, şərti-metaforik, simvolik, fantastik və s. kimi üslubların fərqləndirilməsi yönündədir. Ancaq bu günki ədəbi mənzərəyə nəzər salsaq görərik ki, çağdaş yazıçılar monoton üslublara-çərçivəyə meyilli deyillər. Bir əsər daxilində bir neçə üslub sintezinə cəhd etmişlər. Bəzi yazıçılar bu qarışıqlığı əsərin canına hopdura bilmiş, ondan uğurlu bir nəticə əldə etmişlər. Məsələn, E.Hüseynbəylinin "Don Juan"əsəri publisistik və lirik-romantik üslubların qovuşuğunda qələmə alınmış, yaxud A.Məsudun "Azadlıq" romanı bədii-fəlsəfi və şərti-metaforik üslubların bir-birini izləməsi fonunda ərsəyə gəlmişdir. Bu səpkili üslub qovuşuqluğu uğurlu harmoniya yaradaraq əsərin oxunaqlılığını təmin etmişdir. Qeyd etdiyimiz səbəblərə görə çağdaş ədəbi mənzərə bizə üslubun konkret təsnifatını aparmağa geniş imkan verməsə də, yenə də şərti bölgü aparmaq istərdik. Şərti-metaforik (və ya simvolik), bədii-fəlsəfi, lirik-romantik, epik-analitik və s. kimi üslubları 1991-2005-ci illərdə daha çox müraciət edilən üslublar kimi qeyd etmək olar. Bu fəsildə epik-analitik və bədii-fəlsəfi üslublardan bəhs edilmişdir.

**"Bədii inikasın dəqiqliyi və miqyası: epik-analitik üslub**" adlı I yarımfəsildə epik-analitik üsluba aid edilən əsərlər təhlil edilmişdir. 1991-2005-ci illər arasında bu üslubda yazılmış əsərlər sırasında Əkrəm Əylislinin "Ətirşah Masan", İlqar Fəhminin "Aktrisa" romanları, Maqsud İbrahimbəyovun "Dənizdə qasırğa", Aslan Quliyevin "Əyalət yazıçısı" povestləri, Rəşad Məcidin "10 sentyabr", Sabir Əhmədlinin "Yanvar hekayələri" silsiləsinə daxil olan "Mağmın ruh" hekayələri xüsusilə seçilir. Təhlilə cəlb edilən əsərlər içərisində Fikrət Qocanın "Qarlı, qanlı qərənfillər" əsəri strukturu, üslubu ilə maraq doğurur. 20 yanvar hadisələrinin faciəvi qəhrəmaları İlham və Fərizədən bəhs edən bu əsəri müəllif "gerçək povest" adlandırdığı janrın hüdudlarına yerləşdirməyə cəhd göstərmişdir. Hərçənd ki, bu cəhdə tam müvəffəq olmamışdır. Əsəri janr etibarı ilə nə povest, nə də hekayə kimi dəyərləndirmək mümkündür. Doğrudur, burada povest janrına xas obraz yaradılışı, nisbətən mürəkkəb süjet, hadisələrin dinamik inkişafı nəzərə çarpır, lakin sənətkarlıq, obrazlılıq zəif olduğundan bütün bunlar əsərin bədii kamilliyini şərtləndirmir. Əsərdə yazıçı fantaziyası, cərəyan edən hadisə və əhvalatlara aktiv müəlliif münasibəti hiss olunmur. Təsvirçilik, publisistik şərh obrazlılığı üstələdiyindən povest bədii əsərdən çox xatirata bənzəyir. Sanki F.Qoca bu hadisəni memuar şəklində qələmə almışdır.

Epik-analitik üslubun daha bir nümunəsi Maqsud İbrahimbəyovun "Dənizdə qasırğa" əsəridir. Tarixi sərgüzəşt səpkisində yazılmış bu əsərdə hadisələrin dinamik inkişafı diqqəti cəlb edir. Yaxın keçmişimizdə baş

verən real, tarixi hadisələrdən bəhs edilən əsərdə janrın tələbinə uyğun olaraq hadisələr sərgüzəşt, macəra şəklində təsvir edilmişdir. Üslubun tələbinə uyğun olaraq da epiklik ön plandadır və əsərin süjeti çox sadədir. Ancaq bu heç də povestin məzmunun, ideya və problematikasının primitiv olduğu anlamına gəlmir. Əksinə, burada həm tarixi şəxsiyyətlər, həm də yazıçı təxəyyülünün məhsulu olan personajlar canlı xarakter kimi bədiiləşdirilmişdir. Yazıçı yaddaşı, dəqiqliyi, məsuliyyəti əsərin hər sətrində hiss olunur. M.İbrahimbəyovun üslubu təsvir olunan hadisələri bütün yönlərilə canlandırmağa imkan vermişdir. Tarixdən alınmış bütün hadisələr və şəxsiyyətlər yazıçı tərəfindən məharətlə özününküləşdirilmiş və bitkin bir əsər kimi ərsəyə gətirilmişdir. Kəskin konfliktin fonunda dolğun personajlar yaradılmışdır. "Məlumdur ki, konflikt problemi xarakter problemi ilə üzvi şəkildə bağlıdır. Əgər bir əsərdə konflikt inandırıcı deyilsə, onda xarakterlərin dolğunluğundan söhbət gedə bilməz"[5]. Həmçinin əsərə epiklik hakim kəsilsə də, lirik məqamlar da diqqətdən yayınmamışdır. Məhz bütün bu sadaladığımız cəhətlərinə görə roman epik-analitik üslubun dəyərli nümunələrindən hesab olunur.

Bəhs olunan dövrün ədəbi örnəklərindən olan Əkrəm Əylislinin "Ətirşah Masan" əsəri epik-analitik üslubda yazılmışdır. Yazıçı əsərini roman-reportaj janrına aid etmişdir. Hərçənd ki, bu əsər roman janrının tələblərinə tam şəkildə cavab vermir. Mövzunun əhatəliliyi, genişliyi, obrazların rəngarəngliyi romana xas xüsusiyyətlərdir ki, "Ətirşah Masan"da bu cəhətləri görə bilmirik. Hər bir obrazın təsviri, süjet xəttinin dinamikliyi və epizodların ümumi kəmiyyəti və bir çox məziyyətləri bu əsərin daha çox povest janrının tələblərinə cavab verdiyinin göstəricisidir. Amma nədənsə yazıçı özü adı çəkilən əsərini məhz roman, daha dəqiq desək, roman-reportaj adlandırmışdır. Əsərin dili, ideyası, qayəsi, süjeti və bir çox digər xüsusiyyətləri də məzmunu və forması kimi fərqlidir. Həm mifoloji, həm dini, həm də real ünsürlərin paralel şəkildə çoxluq təşkil etdiyi əsərdə hadisələr obrazların xarakterləri ilə uyğun şəkildə inkişaf etdirilmişdir. Ancaq bu inkişaf birxətli şəkildə baş vermişdir. Romana xas çoxşaxəlilik də əsərdə müşahidə olunmur.

Göründüyü kimi, epik-analitik üslub əsərdəki xarakterlərin psixoloji təhlilindən çox hadisələrin təhkiyəsinə əsaslanmışdır. Lirik-romantik üslubdan əsas fərqi də xarakterlərin, emosiyalarının bədii təhlilinin hadisələrin təsvirinin arxa planında qalmasıdır. Bu üslub üçün sadə dil, hadisələrin dinamik inkişafı xarakterikdir. Dönəmin epik-analitik üslubda yazılmış bir

---

[5] Vaqif Yusifli. Nəsr: konfliktlər, xarakterlər. Bakı: "Yazıçı" nəşriyyatı, 1986, s. 14.

çox əsərləri də bu ifadə tərzinin əsas tələblərinə cavab verir.

**"Müasir nəsrdə insan, zaman və dünya problemi: bədii-fəlsəfi üslub"** adlı II yarımfəsildə çağdaş Azərbaycan nəsrində bədii-fəlsəfi üslub araşdırılmışdır. Düşüncələrin dərinləşdiyi, cəmiyyətin qütbləşdiyi, münasibətlərin mürəkkəbləşdiyi bir mühitdə həyatın güzgüsü olan bədii nəsr zamanın nəbzini tutduğu üçün müşahidə olunan xüsusiyyətlər yaranan əsərlərin ruhuna hopmuşdur. Buna görə də mürəkkəb zamanı fəlsəfi, psixoloji təhlillərlə təsvir etmək bədii-fəlsəfi üslubun öhdəsinə düşür. 1991-2005-ci illər nəsrində bədii-fəlsəfi üslubun maraqlı nümunələri sırasında İsa Muğannanın "Qəbristan", Sabir Əhmədlinin "Axirət sevdası", Mövlud Süleymanlının "Günah duası", Səfər Alışarlının "Maestro", Afaq Məsudun "Azadlıq" əsərləri daha çox diqqəti çəkir.

Ötən əsrin 90-cı illərinin ağrı-acısını, qarışıq siyasi mühitini əks etdirməyə çalışan bir çox yazıçılar kimi Afaq Məsud da bu dönəmin beyinlərdə buraxdığı izlərə laqeyd qalmamışdır. O, dövrə həssas münasibətini "Azadlıq" romanında qabarıq şəkildə əks etdirmişdir. Ümumiyyətlə, "Azadlıq" romanının qarışıq üslubu əsərə müəyyən orijinallıq qatmışdır. Əsərin başlanğıcında felyetonvari publisistik üslub daha qabarıq hiss olunsa da, sonrakı fəsillərdə lirik-romantik, fəlsəfi və şərti-metofarik üslubların qarışıq harmoniyası özünü aydın göstərir. Ümumilikdə isə "Azadlıq" romanı sırf bədii-fəlsəfi üsluba aid əsər kimi dəyərləndirilə bilər. Əsərin bəzi məqamları İsa Muğannanın "İdeal" romanını yada salır. Üslubunda, yazı manerasında, mövzuya yanaşmasında, məzmun dərinliyində "İdeal"la qəribə yaxınlıq duyulur. Belə ki, hər iki romanda konkret tarixi dövr və şəxslər canlandırılmışdır. Lakin bu dövrlərin qeyri-adi, qeyri-müəyyən, hətta absurd və abstrakt hadisələrinin ancaq bu müəlliflərin dərk edə biləcəkləri dərinlikdə təsviri vardır. Hər iki romanda konkret məkan, zaman, şəxslər və hadisələr müəlliflər tərəfindən o qədər özününküləşdirilmişdir ki, bu xüsusiyyət həmin əsərləri tarixi kontekstdə dəyərləndirməyə imkan vermir. Doğrudur, "İdeal"da İsa Muğanna gördüklərinin daha dərininə enərək əsərin fəlsəfi yükünü artırmışdır, Afaq Məsudda isə psixoloji təhlil daha qabarıqdır. Burada gərgin mübarizədən söhbət getmir, ancaq bu o demək deyil ki, yazıçının əsəri mübarizəsiz, sönük və monotondur. "Azadlıq"da daha fərqli və mürəkkəb mübarizədən bəhs olunmuş, insanın öz "mən"i ilə döyüşü bədiiləşdirilmişdir. Heç kəs öz beynindəki əsarəti qırıb azadlığa çıxa bilmir, hətta yuxularında belə davamlı olaraq asılıdır. Prezident də, general da, professor da şüuraltı düşüncələrinin təsirindən qurtulub azadlığa qovuşa bilmir.

Dönəmin ağırlaşan mühitinin, dərd içində boğulan insanın təsviri

baxımından İsa Muğannnanın bədii-fəlsəfi üslubda yazılmış "Qəbiristan" əsəri diqqəti cəlb edir. Qeyd edək ki, müəllif romanda bədii-fəlsəfi üslubun imkanlarından kifayət qədər yararlanmışdır və əsər fəlsəfi yükü ilə diqqəti cəlb edir. Lakin üsluba xas psixologizm burda tam özünü göstərə bilməmişdir. "İdeal" əsərindəki psixoloji təhlilləri, xarakterlərin güclü və dərin bədii təsvirlərini, təəssüf ki, "Qəbristan"da görə bilmirik. Həmçinin romanda müşahidə olunan çatışmazlıqlar təkcə psixoloji təhlilin zəifliyi ilə bağlı deyildir. Eyni zamanda, yazıçı yaddaşı ilə bağlı bəzi məqamlarda diqqətsizliklər gözə çarpmaqdadır.

Bu üslubun digər maraqlı nümunəsi Sabir Əhmədlinin "Axirət sevdası" əsəridir. Yazıçı bu romanda Qarabağ faciəsini bəşəriyyətin üz qarası kimi təsvir etmişdir. Müəllif əsərdə Qurandan istifadə etdiyi ayə və surələrlə ümumxalq faciəsini Allahın bir hökmü kimi axirət dünyası haqqında fikirləri vasitəsilə canlandırmışdır. Romanda ən çox diqqəti cəlb edən bu paralellikdir. Axirət dünyası, ölüm əslində faciənin məntiqi sonudur. Ona görə də yazıçı axirət haqqında düşüncələrini Qarabağ hadisələrinin fonunda təsvir etmişdir. Bəlkə də Sabir Əhmədli ölümdən danışmaqla faciənin böyüklüyünə diqqəti yönəltmək istəmişdir. Bədii-fəlsəfi üsluba xas fəlsəfi və psixoloji təhlillərlə yanaşı, romanda publisistik şərh də özünü göstərir. Romana xas hadisə və əhvalatlar bolluğu, mürəkkəb süjet xətti, obrazların geniş və əhatəli təsviri isə müşahidə olunmur. Yazıçı müharibə dəhşətlərini sanki hadisələrlə deyil, düşüncələrlə, fəlsəfi təhlillərlə oxucuya çatdırmaq istəmişdir.

Doğrudan da, get-gedə ağırlaşan, çətinləşən həyat standartları insanların psixologiyasına təsirsiz ötüşməmişdr. Ümidsizlik, mənəvi tənhalıq, içinəqapanıqlıq cəmiyyətin üstünü qara bulud kimi almışdır. Təbii ki, ədəbiyyat da bu dönəmdə hökm sürən həmin əhval-ruhiyyəni duymuş və bədiiləşdirmişdir. Şərti-metaforik, bədii-fəlsəfi üslubların daha çox müraciət olunması da dönəmin ruhundan qaynaqlanmaqdadır. Reallıqdan yorulan, sıxılan insanlar irreal, absurd dünyalarda özlərinə təsəlli axtarmağa çalışmışlar. Təbii ki, bu axtarışlar aldanışlardan başqa bir şey deyildir. Aldanışlarla, yanlışlarla yaşayan real dünyanın insanları məhz bu səbəbdən də mənəvi sarsıntılar, təbəddülatlar, tərəddüdlər içində çırpınmışlar. Bu çırpıntıları əsas hədəf seçən 1991-2005-ci illər nəsri müraciət olunan mövzularında, üslubunda, yazı tərzində, janrlarında, həmin ruhu obrazlaşdırmışdır. Buna görə də fəlsəfi düşüncə bütün üslublara hakim kəsilməyə başlamışdır. Yazıçılar hansı üsluba üz tutsalar da, fəlsəfəyə köklənməyi unutmamış, zamanın mürəkkəbliyi onları müşahidə etdikləri həyat materialına filosof kimi yanaşmağa sövq etmişdir. Fəlsəfi düşüncə axarı məhz

bu səbəbdən çağdaş nəsrin epik inikasına təsirsiz ötüşməmiş və epikliyi sanki kölgədə qoymuşdur. Buna görə də 1991-2005-ci illər kəsiyində biz epik-analitik üslubla müqayisədə yazıçıların bədii-fəlsəfi üsluba daha çox müraciət etdiklərinin şahidi oluruq.

Dissertasiyanın **III fəsli "Bədii nəsrdə realliğin romantikasi və inikasi"** adlanır və bu fəsildə şərti-metoforik və lirik-romantik üslublar konkret əsərlərin fonunda təhlil edilmişdir. 1991-2005-ci illər nəsri mövzu rəngarəngliyi ilə kifayət qədər təmin olunmuş və bu rəngarənglik nəticə etibarilə üslubu çalarların da artmasına gətirib çıxarmışdır. Fəlsəfi düşüncənin zənginliyi, epikliyin lirik təzahürü ilə yanaşı bu dönəm reallığın romantikası və sonsuz sayda metamorfozları ilə də diqqəti cəlb edir. Məhz belə yazı tərzləri təbii ki, üslubların zənginləşməsinə səbəb olmuşdur. Bu kontekstdə ən çox müraciət edilən bədii-fəlsəfi, epik-analitik üslubla yanaşı, şərti-metaforik və lirik-romantik üslubları da qeyd etmək olar. Şərti-metaforik üsluba zamanın qarışıq sosial-siyasi mənzərələrini, artıq təqib və təzyiqlərdən qurtulmaq üçün, metamorfozların kölgəsində təsvir etmək ehtiyacından irəli gələrək kifayət qədər müraciət olunmuşdur. Bu çevrilmələr əslində gerçəkliyin dəyişilmiş və metamorfik formada olan bədii güzgüsüdür.

**III fəslin "Bədii reallığın simvolikası: şərti-metaforik üslub"** adlı I yarımfəslində fantastik çalarları, irreal, absurd təsvirləri, milli xüsusiyyətləri ilə daha çox diqqəti cəlb edən şərti-metaforik üslubun bu dönəmdə gözəl nümunələrindən biri olan Anarın "Ağ qoç, qara qoç", Kamal Abdullanın paralel xətlərlə inkişaf etdirilən "Yarımçıq əlyazma" romanlarına, Azad Qaradərəlinin şərti-simvolik üslubda yazılmış "Ulartı" hekayəsinə xüsusi diqqət yetirilmişdir. Ədəbi tənqid tərəfindən yüksək dəyərləndirilən, "Ağ qoç, qara qoç" romanı folklor motivləri əsasında qələmə alınmışdır. Başdan-başa xalq yaradıcılığı ruhunda bədiiləşdirilən əsər tam şəkildə şərti-metaforik üslubun tələbləri çərçivəsində ərsəyə gətirilmişdir. Əsərin adında, ideyasında belə şərtilik özünü göstərir. "Məlikməmməd" nağılının fonunda bədiiləşdirilən "Ağ qoç, qara qoç" masalvari bir arzu, istək və ümidlə yazılmışdır. Əsər boyu şərtiliyi qoruyan yazıçı zülmətin, işığın təsvirində də rəmzləşdirməni unutmamışdır. Əsərin üslubuna uyğun olaraq obrazların xarakterinin açılışında da yazıçı şərtiliyi qorumuşdur; bunu əsas obrazların adından və xarakterindən də görə bilərik. Müəllif qəhrəmanın adını belə "Məlikməmməd" nağılına uyğun seçmişdir. Anar Məlik Məmmədlinin peşəsini də təsadüfi deyil, sırf əsərin ideyasına, qayəsinə xidmət edəcək bir sənət kimi seçmişdir. Jurnalist – dövrün güzgüsü – görən, düşünən və göstərən beyni Məlik Məmmədli də

məhz çağdaş Azərbaycanın bədii güzgüsünün simvoluna çevrilmişdir. Yazıçı məhz bu personaj vasitəsi ilə utopik və irreal bir aləmin mənzərəsini oxucusuyla paylaşmışdır. Bu üslubda qələmə alınan həyatın bir başqa çarəsizliyindən, çıxılmazlığından şərti-metaforik üslubun tələbləri çərçivəsində bəhs edən, mövzusu, yazı tərzi, üslubu, ideyası ilə diqqəti cəlb edən əsərlərdən biri də Kamal Abdullanın "Yarımçıq əlyazma" romanıdır. Əsərə şərti-metaforik üslub hakim kəsilsə də, lirik-psixoloji məqamlar da yox deyildir. Lakin roman bütünlüklə folklor motivləri əsasında qələmə alınmışdır. "Dədə Qorqud" süjeti və Şah İsmayılın taleyi fonunda təsvir olunan hadisələr başdan-başa şərtiliklə yoğrulmuşdur.

"Şərtilik müasir insanın zəngin və zəngin olduğu qədər də mürəkkəb daxili aləmini açmaqda, yazıçı dünyabaxışını aydınlaşdırmaqda müəllifin müttəfiqi, köməkçisi olan bədii vasitədir və yəqin buna görə də şərtilik son dərəcə əsaslandırılmış, ehtiyaca müvafiq olmalıdır"[6]. Şərti-metaforik üslubun əsas xüsusiyyətləri bu fikirlərlə özünün tam ifadəsini tapmışdır.

Şübhəsiz ki, 1991-2005-ci illər Azərbaycan nəsrində şərti-metaforik üsluba müraciət yalnız bəhs olunan əsərlərlə məhdudlaşmır. Dissertasiyada yalnız ən səciyyəvi örnəklərin təhlili ilə kifayətlənilmişdir.

**"Yazıçının mənəvi dünyası obrazlarda: lirik – romantik üslub"** adlı II yarımfəsildə adından göründüyü kimi, lirik – romantik üslubda yazılan nəsr örnəkləri araşdırılmışdır.

Tarixi qədimlərə söykənən, ənənədən qaynaqlanan lirik-romantik üslub çağdaş cəmiyyətin ab-havasını, yaşantılarını özündə əks etdirə biləcək qədər yüksək bədii potensiala malikdir. Ona görə də lirik-romantik ifadə tərzi son illərin postmodernizminin "bombardmanına" sinə gərərək öz aktuallığını qoruya bilmişdir. Bu səbəblərdən irəli gələrək çağdaş yazarlardan da tez-tez bu üsluba müraciət edənlər vardır. 1991-2005-ci illərdə lirik-romantik üslubda yazılmış nümunələr sırasında Əzizə Cəfərzadənin "Zərrintac-Tahirə", Y.Səmədoğlunun "Köhnə yəhudi mahnısı", Sabir Azərinin "Mən DTK-nın təcridxanasında yatmışam", Elçinin "Hökmdarın taleyi", Anarın "Cavid ömrü", M.Orucun "Son dayanacaqlardan biri", Əlabbasın "Qiyamçı", N.Əbdülrəhmanlının "Dönəlgə" əsərləri də yer almışdır.

Bütövlükdə dövrün üslublarının ümumi mənzərəsi şərti-metaforik, lirik-romantik, epik-analitik, bədii-fəlsəfi üslubların üstünlüyü ilə müşayiət olunur. Son olaraq qeyd etmək istərdik ki, zaman hər şeyin ölçüsü və meyarı olduğundan hər dövr öz ədəbiyyatını yetişdirmiş, formalaşdırmışdır.

---

[6] Elçin. Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesinin problemləri. Bakı: "Çinar-çap" nəşriyyatı, 2003, s. 93.

1991-2005-ci illər də qarışıq mühiti, ağrısı-acısı, əzabı-əziyyəti, enişi-yoxuşu ilə dönəmin üslub müxtəlifliyinə səbəb olmuşdur.

Dissertasiya işinin **"Nəticə"** bölümündə əldə olunan elmi qənaətlər aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. 1991-2005-ci illər Azərbaycan ədəbiyyatının məna-məzmun, ideya-problem, poetik ifadə sistemində əhəmiyyətli dəyişikliklərin baş verdiyi mərhələ kimi dəyərləndirilməlidir.

2.Mövcud nəsr janrlarının yeni çalarlarla zənginləşməsi məhz bu dövrün bədii axtarışlarının yekunu kimi şərtlənir. Ümumiyyətlə, janr istilahının konkret tələbləri olsa da, müasir dövrdə bəzən yazıçılar bununla kifayətlənməmişdir. Dövrün ab-havasına uyğun olaraq yazıçılar nəsrin janrlarını yeni çalarlarla zənginləşdirməyə çalışmışlar. Başqa sözlə, 1991-2005-ci illər nəsrinin bədii forma ilə bağlı orijinallığı və yeniliyi isə janrdaxili bölgülərə meylin artması ilə diqqəti çəkir.

3. İrreal, absurd, utopik düşüncələrin hakim kəsildiyi yeni dövr dünya ədəbiyyatının ruhunda duyulmaqda olan bədbinlik çağdaş Azərbaycan ədəbiyyatının içinə də nüfuz etməyə başlamışdır. Postmodernizmin şərti, daha doğrusu, qeyri-rəsmi qələbəsi də sırf bununla əlaqədardır.

4. Bu dönəmin ədəbiyyatı, əsasən, həyat həqiqətlərini şərtsiz və düzgün təsvir etməyə can atmışdır. Bir-birinin ardınca baş verən siyasi-iqtisadi hərc-mərclik də, təbii ki, dönəmin düşüncə tərzinə öz möhürünü vurmuşdur. Bu səbəbdən də modernizm söz sənətində hakim mövqe tutduğu üçün janr və üslub məsələlərində ənənə ilə yanaşı novatorluq da ön plandadır. Hətta bəzən yazıçılar modernizmlə kifayətlənməmiş, posmodernizmə də müraciət etmişlər.

3.Dünyada və ölkədə baş verən qlobal hadisə və proseslər Azərbaycan nəsrinə ideya, mövzu, problematika, məzmun cəhətdən bir sıra yeniliklər gətirmişdir. Ölüm, azadlıq, müharibə, şəhidlik, qaçqınlıq kimi müasir ədəbiyyat üçün yeni olan problemlər təhlil predmetinə çevrilmişdir.

5. Araşdırmamızın nəticəsi olaraq deyə bilərik ki, dövrün düşüncə tərzi, baxış açısı, dünyanı dərk etmə yönləri, tamamilə, fərqli olduğuna görə həmin dövrün ədəbiyyatı da bu fərqlilikdən öz payını götürmüşdür. Həmin payın çox hissəsi də janrın öhdəsinə düşmüşdür.

6. Bütün çatışmazlıqlarına, problemlərinə rəğmən keyfiyyət göstəricilərinə — sənətkarlıq xüsusiyyətlərinə (janr və üslubuna, bədii dilinə, süjetinə və s.) görə bu dövr nəsri uğurları ilə çağdaş Azərbaycan ədəbiyyatını zənginləşdirməyi bacarmışdır.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Bəlalı dövrün məhsulu // Dil və ədəbiyyat, Bakı: 2005, № 4 (46), s. 103-105

2. Povest janrı haqqında // Dil və ədəbiyyat, Bakı: 2006, № 2(50), s.130-131

3. Oyuna çevrilən həyat və ya həyata keçən oyun // Filologiya məsələləri, Bakı: 2007, s. 266-275

4. Tarixin saxta qatları bədii müstəvidə // Dil və ədəbiyyat, Bakı: 2008, № 6 (66), s. 139-141

5. Məsum azadlığın göz bəbəyi – Tahirə Qürrətüleyn // Bakı Universiteti Xəbərləri, Bakı: 2010, № 1, s.51-56

6. Don Juan, "Tip yoxsa qəhrəman?" // Azərbaycan, Bakı: 2010, № 7, s. 178-184

7. Tekerrür eden tarihin tekerrür etmeyen kahramanı // Kardeş kalemler, Ankara: 2010, № 4 (45), s. 66-70

8. Heçlik vadisinə gedən yol // Ulduz, Bakı: 2011, № 12, s. 84-88

9. Hekayə janrı: obrazlılığın lakonik ifadəsi // Dil və ədəbiyyat, Bakı: 2013, № 1(85), s. 232-234

10. Müasir nəsrdə mövzu və üslub bənzərsizliyi // Dil və ədəbiyyat, Bakı: 2013, № 2 (86), s. 139-141

11. Əlyazmaların izi ilə / Ümummilli lideri H.Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş Filologiyanın aktual problemləri mövzusunda Respublika elmi-nəzəri konfransının materialları. Bakı: 8 may, 2013, s.175-182

12. Несколько слов о стиле // Гілея науковий вісник, Киев: 2013, выпуск 73 (№ 6), с. 273-274

13. Çağdaş nəsrin tənha insan konsepsiyası / VII Beynəlxalq türk mədəniyyəti, incəsənəti və mədəni irsin mühafizəsi simpoziumu, Bakı: 26-29 iyun 2013, s.78

**Конуль Ибрагим кызы Казымова**

# ВОПРОСЫ ЖАНРА И СТИЛЯ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЫ (1991-2005)


## Резюме

Во введении излагаются вопросы актуальности темы, новизна исследования, цели и задачи, научно-теоретические и методологические основания, обосновываются предмет и объект исследования, апробация и структура работы.

В первой главе диссертации под названием «**Типология жанров в современной художественной прозе и тенденции развития**» излагаются вопросы развития жанров, а также современных эпических жанров. В этой главе, во-первых, исследования проводились на фоне конкретных научно-теоретических источников, связанных со становлением жанра, а затем анализируются, причем в отдельных разделах, романы, рассказы и рассказы, которые являются тремя наиболее важными жанрами современной азербайджанской прозы.

В первой разделе первой главы романа были изучены и исследованы, наряду с традиционными аспектамиэтого жанра, также и современные,новейшие аспекты романа. Одновременно романы «Зарритадж-Тахира» Азизы Джафарзаде, «Дон Жуан» Эльчина Гусейнбейли, роман «Актриса» Ильгара Фахми были изучены, как современные образцы жанра романа. В последующих разделах, посвященных жанру повести и рассказа, было, прежде всего, проведено научно-теоретическое исследование проблемы этих жанров, затем анализированы их конкретные образцы. Важно, что в этот период все три жанра приобрели новое звучание и направление.

Во второй главе диссертации под названием «**Художественно-философские размышления и проблема эпического отражения**», прежде всего, были рассмотрены понятия стиля, смыслы, содержащиеся в понятии этого термина. В первой подглаве данной главы эпико-аналитический стиль был проанализирован на примере таких произведений, как «Провинциальный писатель» Аслана Кулиева, «Заснеженные кровавые гвоздики» Фикрета Годжи, «Шторм на море» Максуда Ибрагимбекова. Во втором подразделе в свете этого стиля были рассмотрены художественно-философские особенностироманов

«Свобода» Афаг Масуд, «Кладбище» Исы Муганны и «Любовь в Судный день» Сабира Ахмедлы.

Третья глава диссертации называется «**Романтическое отражение реальности в современной прозе**». В этой главе на основе конкретных произведений изучались условно-метафорические и лирико-романтические стили. Это «Белыйбаран, черный баран» Анара, «Незаконченная рукопись» Кямала Абдуллы, которые являются примерами современного условно-метафорического стиля.Такие произведения,как «Поворот» Наримана Абдулрахманлы, «Одна из последних остановок» Мамеда Оруджа, «Судьба правителя» Эльчина, «Мятежник» Алиаббаса – это интересные образцы романтического стиля.

В заключении сделаны выводы о теоретических и проблемных вопросах, о которых мы говорили о диссертации, подытожены и обобщены основные идеи.

**Konul Ibrahim kızı Kazimova**

## ISSUES OF THE AZERBAIJANI PROSE GENRE AND STYLE (1991-2005)

### Summary

The introduction of research work substantiated the topicality of the issue, the novelty of the research, goals and tasks, scientific-theoretical and methodological grounds, the subject and object of research, the approbation paths and the structure of the work.

The first chapter of the thesis, named "Typology of Genres in Contemporary Artistic Prose and the Trends of Development", presents the questions of genre development as well as modern epic genres. This chapter, first of all, analyzes the studies were conducted against the background of specific scientific and theoretical sources related to the genre's formation, and further reviews the novels, essays and stories that are the three most important genres of contemporary Azerbaijani prose.

The first section of the first chapter of the novel studied and explored the modern, new aspects of the novel along with the traditional aspects of the new genre. At the same time, the novels "Zarritaj-Tahir" by Aziza Jafarzade, "Don Juan" by Elchin Huseynbeyli, "Actress" by Ilgar Fahmi were studied as modern samples of the novel genre. The following sections dedicated to the genre of the essay and story, first of all, conduct a scientific and theoretical study of the problem of the genre of the essay and story, with further analysis of their specific samples. It is important that during this period all three genres acquired a new direction.

The second chapter of the thesis, named “The Limits of the Artistic and Philosophical Reflections and the Problem of Epic Reflection", first of all, reviewed the notions of style, and the meanings contained in the concept of the term. In the first sub-chapter of this chapter, the epic-analytical style was analyzed using examples of such works as Aslan Kuliyev's "Provincial Writer", Fikrat Godja’s "Snow-covered bloody carnations", Maksud Ibragimbekov's "Storm at Sea". In the second section, the artistic and philosophical features of the "Freedom" ("Freedom") by Afag Masud, "The Cemetery" of Isa Muganna and "Love in the Day of Judgment" by Sabir Ahmedli were considered in the light of this style.

The third chapter of the thesis is called "Romantic reflection of realistic prose". This chapter studied the conditional-metaphorical and

lyric-romantic styles based on specific works. This are: "White Sheep, Black Sheep" by Anar, "Unfinished Manuscript" by Kamal Abdullah, which are examples of modern conditional-metaphoric style. Such works as "Turn" by Nariman Abdulrahmanli, "One of the last stops" by Mamed Oruj, "The Fate of the Governor" by Elchin, "Rebellion" by Aliabbas - are the interesting samples of the romantic style.

The conclusion provides the summary about the theoretical and problematic issues, which were described in the thesis, summarized the main ideas.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**КОНУЛЬ ИБРАГИМ гызы КАЗЫМОВА**

# ВОПРОСЫ ЖАНРА И СТИЛЯ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЫ (1991-2005)

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**Б А К У - 2017**